

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 54 (24.191)

*29 mart 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik

# Laçın bir cənnət məkan olacaqdır

## *Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı



– Siz Laçın rayonunda Prezidentin xüsusi nümayəndəsi vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir. Rayonun çox böyük potensialı var. Əlbəttə ki, Laçın rayonuna qayıdacaq keçmiş məcburi köçkünlər bundan sonra Laçında rahat yaşamalıdırlar və Azərbaycan dövləti bunu təmin edəcək.

Laçın rayonu 28 il işğal altında idi və bu işğal dövründə rayonun, demək olar ki, bütün infrastrukturu Ermənistan tərəfindən məhv edilmişdir, ətraf mühitə böyük ziyan vurulmuşdur. Bütövlükdə, bizim meşə fondumuzun qanunsuz istismarı nəticəsində 60 min hektar meşə ermənilər tərəfindən məhv edilib, kəsilib, talanıb, satılıb. Onun böyük hissəsi Laçın rayonunda olan meşə fondudur.

İşğal dövründə ermənilər Laçında qanunsuz məskunlaşma siyasəti aparmışlar. Xaricdə yaşamış ermənilər həm Laçın şəhərinə, həm bir neçə kəndə gətirilmiş və orada yerləşdirilmişlər. Bu bütün beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır. Əfsuslar olsun ki, Ermənistan dövləti bu hərbi cinayətə görə hələ də məsuliyyətə cəlb edilməmişdir.

Şuşanın işğalından bir neçə gün sonra Laçın rayonu da işğal edilmişdir. Bu, ölkəmiz üçün böyük faciə idi, laçınlılar üçün böyük faciə idi və bu, AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti idi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər – hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu. Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb olmuşdur. Bu imkandan, fürsətdən istifadə edərək AXC-Müsavat xəyanətkar cütlüyü Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etmişdir və bu, daha böyük faciələrə yol açdı. Ondan bir il keçmemiş – 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, ovaxtkı – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə Ermənistan ərazisi arasında coğrafi bağlantı yaradılmışdır və əlbəttə ki, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin əsas şərti olmuşdur.

Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Vaxtilə "Qarabağ Ermənistandır", – deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi – ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu bizim böyük tarixi Zəfərimizdir.

Xüsusilə bildirməliyəm ki, uzun illər aparılmış danışıqlar əsnasında hər zaman vasitəçilər Laçın rayonuna hansısa xüsusi bir yanaşma sərgiləyirdilər və Ermənistan, bütövlükdə, Laçın rayonunun Azərbaycana qaytarılmasını qəbuledilməz sayırdı. Halbuki onlar digər rayonlardan da çıxmaq fikrində deyildilər. İndi – müharibədən iki il yarım keçəndən sonra bu, hər kəsə daha aydın oldu. Beynəlxalq vasitəçilər – ATƏT-in ovaxtkı Minsk qrupu danışıqların aparılması ilə faktiki olaraq bu işğalı möhkəmləndirməyə çalışırdılar. İndi hər şey aydın oldu – Fransanın Azərbaycana bu ədalətsiz və mənfi münasibəti təsadüfi deyil. Sadəcə olaraq, işğal dövründə bunu müəyyən dərəcədə pərdələmək istəyirdilər, sadəcə olaraq, bizi çaşdırmaq istəyirdilər. Amma baxın müharibədən – İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində bizə qarşı hansı çirkin əməllər törədilir, hansı əsassız ittihamlar irəli sürülür. Yəni bütün bunlar göz qabağındadır, o cümlədən Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi bir sıra qətnamə yenə də ermənipərəst, rüşvətxor və anti-Azərbaycan qruplaşmanın məhsuludur və burada aparıcı rolu Fransa deputatları oynayır. İşğal dövründə də biz bunu təbii ki, hiss edirdik, amma bu dərəcədə yox. Təsəvvür edə bilməzdik ki, ölkələr bu dərəcədə riyakar, yalançı ola bilərlər. Adamın üzünə baxıb bir söz deyə, arxada başqa iş görə bilərlər.

Yəni bu iki il yarım müddət ərzində bütün dünya bir daha hər şeyi gördü. Eyni zamanda anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü. Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz. Biz bunu İkinci Qarabağ müharibəsində Ermənistana sübut etmişik, müharibədən keçən iki il yarım ərzində Ermənistanın himayədarlarına sübut etmişik. Onları məğlub etmişik və bir daha bütün dünyaya göstərmişik ki, biz istədiyimizə nail oluruq və olacağıq.

Beləliklə, Laçın rayonunun tarixçəsi, əlbəttə ki, bir çox hallarda ibrət olmalıdır. Bundan sonra Laçın rayonunun həm təhlükəsizliyinin qorunması, həm oraya keçmiş məcburi köçkünlərin tezliklə qaytarılması bizim üçün əsas vəzifələrdən biridir. Laçın rayonunun Ermənistanla sərhəd istiqamətləri üzrə bütün mühəndis-istehkam işləri, demək olar ki, başa çatmaq üzrədir. Heç vaxt tarixdə olmayan yollar salınıb, Laçın və Kəlbəcər rayonlarında 100 kilometrlərlə ölçülən kəndlərarası yollar, eyni zamanda hərbi mövqelərə gedən yollar salınıbdır. Beləliklə, bu gün biz Azərbaycan-Ermənistan sərhədi istiqamətində çox əlverişli mövqelərə sahib olmuşuq və bu mövqelərdə özümüzü gücləndiririk, bu mövqelərdə qalacağıq. Əlbəttə ki, Laçın rayonunun təhlükəsizliyi ilə bağlı başqa addımlar da atılır, tədbirlər görülür və bu tədbirlər imkan verir ki, oraya qayıdacaq soydaşlarımız rahat, təhlükəsizlik şəraitində yaşasınlar.

İkinci Qarabağ müharibəsi başa çatanda rayon bizim nəzarətimizə keçsə də, Laçın şəhəri nəzarətimizdən kənarda idi. Bunun obyektiv səbəbləri var idi. Çünki Ermənistandan Qarabağa gedən yol Laçın şəhərinin ortasından keçirdi. 2020-ci il noyabrın 9-da Rusiya Prezidenti ilə gün ərzində apardığım bir çox saatlıq telefon danışıqları nəticəsində biz nail olduq ki, Laçın şəhərinin də Azərbaycana qaytarılması şərtləndirilsin. Bu məqsədlə alternativ yolun çəkilişi mənim təkidimlə yekun Bəyanata salınmışdır və müddət göstərilmişdir. Amma bu, bir qədər qeyri-müəyyən ifadələrlə göstərilmişdir ki, üç il ərzində bu məsələ ilə bağlı müzakirələr aparılacaq. Ancaq İkinci Qarabağ müharibəsi başa çatan kimi mən dərhal göstəriş verdim ki, yeni yolun marşrutu və bütün texniki parametrləri müəyyən edilsin. Biz bu işə tezliklə başlamışıq və bunu bir il yarım ərzində həll etmişik. Yəni Laçın şəhərindən yan keçən yeni yol çəkildi və keçən il avqustun əvvəlində, daha doğrusu, avqustun 2-də yol istismara hazır idi. Biz Rusiya sülhməramlı qüvvələrinin komandanlığına xəbər göndərmişdik ki, artıq onlar öz postlarını ovaxtkı marşrutdan çıxarıb yeni yola keçirsinlər və avqustun 5-nə qədər biz Laçın şəhərinə, Zabux və Sus kəndlərinə girməliyik. O vaxt bizim nümayəndələrimizlə təmasda olan Qarabağ ermənilərinin nümayəndələri bizdən xahiş etmişdilər ki, vaxt verin, biz avqustun 25-nə qədər özümüz bu məsələləri həll edərik, orada qanunsuz məskunlaşmış erməniləri Laçın şəhərindən, Zabux və Sus kəndlərindən çıxaracağıq və beləliklə, məsələ rahat şəkildə öz həllini tapa bilər. Mən buna etiraz etmədim, yəni 20 gün o qədər də böyük fərq etmir. Beləliklə, Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşmış bütün ermənilər aparılan işlər nəticəsində avqustun 25-də oradan çıxarılmışdır. Avqustun 26-da biz Zabux, Sus kəndlərinə və Laçın şəhərinə qayıtmışıq. Ondan sonra mən Laçın şəhərinə səfər etdim, Azərbaycan Bayrağını şəhərin mərkəzində qaldırdım və bəyan etdim ki, biz artıq bu doğma diyarımızda əbədi yaşayacağıq.

Ondan dərhal sonra göstəriş verildi ki, biz vaxt itirmədən Laçın şəhərinin yenidən qurulması prosesinə start verək. Artıq iki ildən çoxdur ki, Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Bildiyiniz kimi, Laçın rayonunda beynəlxalq hava limanı inşa edilir. O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklərlə üzləşmişdik. Çünki orada uçuş-enmə zolağının inşası üçün düz yer tapmaq mümkün olmadı. Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək.

Kəlbəcər-Laçın yolunun yenidən qurulması prosesinə start verildi. Mən özüm Kəlbəcərdən Laçına maşınla getmişəm, məsafə o qədər uzun olmasa da, bu yol həddindən artıq çətin və təhlükəlidir, indiki yoldan istifadə etmək, demək olar ki, qeyri-mümkündür. Sovet vaxtında o bölgələrdə yaşamış insanlar da yaxşı xatırlayırlar ki, o yol çox çətin idi, bir çox hallarda bu, serpantin yoldur və çox təhlükəli idi. Ona görə biz bu yolu yenidən qururuq, bir çox tunellər inşa ediləcək. Ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarında bizim ən çox tunellərimiz məhz o bölgədədir və Murov dağının altından keçən tunelin uzunluğu, təxminən, 12 kilometr olacaq. Beləliklə, biz Göygöl rayonundan da Şərqi Zəngəzura yol açırıq. Eyni zamanda Qubadlı-Laçın yolu da sürətlə inşa edilir.

Yəni müharibə başa çatan kimi Laçın rayonunun yenidən qurulması ilə bağlı işlərə start verilmişdir. Amma Laçın şəhərinin yenidən qurulması keçən ilin avqustun 26-dan bu yana icra edilir. Sizə və Azərbaycan ictimaiyyətinə bildirmək istəyirəm ki, birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. Mənim göstərişimlə bütün bu işləri biz bu ilin sonuna qədər başa çatdırmalıyıq, bu, sadəcə, birinci mərhələ olacaq. Bu evlərin sayı göstərir ki, minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar.

Eyni zamanda Laçın şəhərində Heydər Əliyev Fondunun xətti ilə məscid inşa ediləcək. Məscidin təməlini də mən Laçında olarkən özüm şəxsən qoydum və çox gözəl yerdə bizim dini məbədimiz yaxın gələcəkdə inşa ediləcəkdir.

Bununla paralel olaraq, Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start vermişik. Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. Xaricdə yaşayan ermənilər Zabux kəndində, yenə də deyirəm, o cinayəti törədən Ermənistan dövləti ilə birlikdə bir kənd salmışdılar, evlər tikmişdilər. O evlərdə indi bizim hərbi birləşmələrimizin şəxsi heyəti yerləşir. Ancaq Zabux kəndinin sakinləri üçün tamamilə yeni kənd salınır.

Bununla yanaşı, bildirməliyəm ki, Güləbird və Qorçu kəndlərinin Baş planı mənim tərəfimdən təsdiqləndi. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Yəni gətirdiyim bütün bu rəqəmləri nəzərə alaraq, hər kəs görə bilər ki, yaxın gələcəkdə – bu il və gələn il biz Laçın rayonuna, təqribən, 10 minə yaxın, bəlkə də, çox keçmiş köçkünü yerləşdirəcəyik.

Onu da bildirməliyəm ki, Laçın şəhərinin bütün infrastrukturu yenidən qurulur – su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, yollar, Laçın şəhərinin bütün daxili yolları yenidən qurulur. Daxili yolların uzunluğu, təqribən, 50 kilometrdən çoxdur. Laçın şəhərinin memarlıq üslubu da göz oxşayır. Yəni bu, nəinki Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcək, – nəzərə alsaq ki, Laçının çox füsunkar təbiəti – meşələri, dağları, çayları var, – bu, bir cənnət məkan olacaqdır. Bax biz bu işləri görürük və bu, görülən işlərin, sadəcə, bir hissəsidir. Biz azad edilmiş bütün torpaqlarda indi genişmiqyaslı quruculuq işləri aparırıq və bu işləri öz hesabımıza görürük və görəcəyik.

*Ardı 2-ci səhifədə*

Siz mənim xüsusi nümayəndəm kimi artıq dərhal işə başlamalısınız, bütün bu işlərə rəhbərlik etməlisiniz. İnfrastruktur layihələri, əlbəttə ki, mərkəzi icra orqanları tərəfindən icra edilir. Eyni zamanda siz Laçın rayonunun gələcək inkişafı ilə bağlı, iş yerlərinin yaradılması ilə bağlı, vətəndaşların rahat yaşaması ilə bağlı konkret əlavə təkliflər verməlisiniz. Çünki biz çalışırıq ki, azad edilmiş bütün rayonlarda işlər paralel surətdə getsin. Ona görə, məsələn, hər rayonda 3-4 kəndin birinci mərhələdə qurulması nəzərdə tutulur, eyni zamanda əlbəttə ki, şəhərlər də daxil olmaq şərti ilə. Ancaq, məsələn, söhbət Laçın rayonundan gedirsə, Laçın rayonunda birinci mərhələdə qurulacaq bütün kəndlərin adları təsdiqləndi və biz birinci mərhələdə bəzi yerlərdə bir neçə kəndin sakinlərini bir yerə cəmləşdirəcəyik. Çünki bu həm onların yaşaması, eyni zamanda nəqliyyat-logistika məsələlərinin həlli üçün daha əlverişlidir. Bizim, bütövlükdə, təkcə Qarabağda, Şərqi Zəngəzurda deyil, digər bölgələrimizdə də dağ rayonlarında kəndlər bir-birindən aralı yerləşirdi və bu, bir çox hallarda insanların rahat yaşamasına o qədər də imkan vermirdi. Yəni bu, ənənəvi olaraq belə qurulmuşdur. Əlbəttə ki, azad edilmiş torpaqlarda indi və gələcəkdə hər bir kənd bərpa ediləcək. Ancaq Azərbaycan dövləti öz üzərinə düşən vəzifəni bunda görür ki, biz yaxında yerləşən kəndlərin sakinlərini bir yerə yığıb onlar üçün gözəl şərait yaradaq. Yəni biz şəhər tipli kəndlər quracağıq və mən qurulacaq bütün kəndlərin Baş planını təsdiqləmişəm. Eyni zamanda kəndlərin xarici görkəmi də təsdiqlənib və yenə də deyirəm, həm rahat, həm də memarlıq nöqteyi-nəzərindən çox gözəl olacaq.

Əlbəttə ki, bundan sonra Laçın rayonunda ətraf mühitin qorunması birinci vəzifə olmalıdır. Biz keçmiş köçkünləri qaytaracağıq, infrastruktur yaradacağıq və orada iş yerləri yaradılacaq, çox gözəl imkanlar yaradılacaq. Ancaq qayıdacaq hər bir keçmiş məcburi köçkün özü də bilməlidir, siz də mənim nümayəndəm kimi bilməlisiniz, biz ətraf mühiti qorumalıyıq. Çünki ölkəmizin bəzi yerlərində ətraf mühitə böyük ziyan vurulur, qanunsuz işlər görülür, torpaqlar zəbt edilir, ağaclar kəsilir, yerində evlər tikilir, kənd təsərrüfatı təyinatlı torpaqlarda aidiyyəti olmayan obyektlər inşa edilir. Yəni siz mənim nümayəndəm kimi və bütün vətəndaşlar bilməlidirlər ki, burada qayda-qanun var, özbaşına heç kim heç bir iş görə bilməz. Qaydalar nədir, qanunlar nədir, hər kəs ona əməl etməlidir. Torpaqların zəbt edilməsi, meşə fondunun məhv edilməsi və digər xoşagəlməz hallar olmamalıdır. Yəni bu hallara dözümlülük sıfır dərəcəsində olmalıdır. Əminəm ki, öz dədə-baba torpaqlarına qayıdacaq bütün keçmiş köçkünlər bax bu amalla yaşayacaqlar. Dövlət orqanları onlara kömək etməlidir və nəzarət etməlidir ki, hər şey qayda-qanunla həll olunsun, tənzimlənsin.

Biz Laçın və Kəlbəcər rayonlarının su ehtiyatlarından istifadə edərək böyük bir enerji mənbəyi yaradacağıq. İndi Laçın, Kəlbəcər, Zəngilan və bir neçə digər rayonda Su Elektrik stansiyalarının tikintisi sürətlə gedir, biz 50 meqavatdan çox enerji alırıq. Birinci inşa edilən stansiya Güləbird kəndində olmuşdur, bu layihə həyata keçirilmişdir. Bütövlükdə, isə qarşıya məqsəd qoyulmuşdur ki, azad edilmiş ərazilərdə bu ilin sonuna qədər su elektrik stansiyalarının gücü 200 meqavat olsun, gələcəkdə isə 500 meqavata çatmalıdır. Laçın və Kəlbəcər rayonlarında böyük külək enerji potensialı var.

Yəni bütün bu işlər yoluna qoyulacaq. Yenə də deyirəm, dövlət öz üzərinə düşən vəzifəni icra edir. Demək olar ki, indi bu təyinatdan sonra azad edilmiş əksər rayonlarda mənim xüsusi nümayəndələrim artıq fəaliyyətə başlayacaqdır. Hələ təkcə Kəlbəcər rayonunda təyin edilməyib, bu da olacaq. Bu ərazilərdə, eyni zamanda yeni idarəetmə üsulu da tətbiq edilməlidir və edilir. Gələcəkdə bu, yeni idarəetmə modeli kimi ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir. Yəni bu həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur. Əminəm ki, bu təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə, ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcəkdir. Bax mənim tapşırıqlarım bundan ibarətdir, siz mənim etimadımı doğrultmalısınız.

***

Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi **Məsim Məmmədov** dedi: – Möhtərəm cənab Prezident, mənə göstərdiyiniz yüksək etimada görə Sizə minnətdarlığımı bildirirəm. Qeyd etmək istəyirəm ki, azad edilmiş ərazilərə gedərək, orada erməni barbarları tərəfindən törədilmiş böyük dağıntıları görüb bir azərbaycanlı kimi dərin sarsıntı keçirməmək olmur. Buna baxmayaraq, eyni zamanda mən həmin regionda aparılan böyük tikinti işlərinin şahidi oldum, gördüm ki, böyük əzmkarlıq var. Sizin rəhbərliyinizlə Azərbaycan xalqı həmin əraziləri tez bir zamanda bərpa etmək, oraya köçüb təzədən oraları inkişaf etdirmək əzmindədir.

Sizi əmin etmək istəyirəm ki, mənim qarşımda qoyulan bütün vəzifə və tapşırıqları vaxtında əzmkarlıqla həyata keçirmək üçün səy və gücümü əsirgəməyəcəyəm. Əsas odur ki, Azərbaycan dövlətinə və cənab Prezident, Sizə vicdanla, təmiz və dürüst xidmət etmək mənim üçün böyük şərəfdir. Təşəkkür edirəm.

**AZƏRTAC**

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



*“Heydər Əliyev İli” çərçivəsində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Heydər Əliyev Muzeyində “Ulu Öndər Heydər Əliyevin mənalı həyatı, zəngin siyasi irsi hər birimizə örnəkdir” mövzusunda tədbir keçirib.*

Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Heydər Əliyev Muzeyində keçirilən tədbir dahi şəxsiyyətin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov bildirib ki, xalqımızın böyük oğlu, müasir Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. ***“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”*** söyləyən Ulu Öndər ömrünü, bütövlükdə, doğma Azərbaycanımızın çiçəklənməsinə, mənsub olduğu xalqın inkişafına sərf edib, bütün varlığı ilə sevdiyi Vətənini, xalqını, onun dövlətçiliyini tarixin çox çətin sınaq və imtahanlarından böyük məharətlə çıxarıb. Dünya dövlətləri sırasında özünün qurub yaratdığı şah əsəri olan müstəqil Azərbaycan dövlətinə yaşamaq, əbədi var olmaq hüququ verib və hazırda bu müdrik siyasət də bizim xoşbəxt və firavan gələcəyimizi layiqincə təmin edir.

Qeyd olunub ki, Ümummilli Liderimizin uzaqgörən və düzgün siyasəti ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən peşəkarcasına və layiqincə davam etdirilir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan Yeni Azərbaycan Partiyasının 30 illik inkişaf tarixi göstərdi ki, partiyanı yaradanlar, onun təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar.

Bildirilib ki, bu gün Yeni Azərbaycan Partiyası cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Partiya ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir.

Çıxışlardan sonra dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub, Heydər Əliyev Muzeyi ziyarət edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin “Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin ədliyyə orqanlarında qeyd edilməsi ilə bağlı” təsdiq etdiyi Tədbirlər Planının icrası istiqamətində silsilə tədbirlər davam etdirilir.

Nazirlik əməkdaşlarının iştirakı ilə Heydər Əliyev Muzeyində doğum haqqında şəhadətnamələrin valideynlərə xüsusi açıqcalarda təqdim edilməsi mərasimi keçirilib.

Tədbirdə nazirliyin əməkdaşı Zülfü İsmayılov çıxış edərək vurğulayıb ki, bu il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü xalqımız tərəfindən böyük ehtiramla qeyd edilir. Bu gün də hər birimiz görkəmli dövlət xadiminin Vətən və millət qarşısında misilsiz xidmətlərini bir daha minnətdarlıq hissi ilə xatırlayırıq. Zülfü İsmayılov “Heydər Əliyev İli”ndə dünyaya gələn körpələrin valideynlərini belə əhəmiyyətli tarixdə valideyn olmaları münasibətilə təbrik edib.

Sonra nazirliyin əməkdaşı Həbibə Əliyeva və Naxçıvan Şəhər Nikah Evinin müdiri İsayə Gülməmmədova çıxış ediblər. Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin uşaqlara xüsusi qayğı ilə yanaşmasından, uşaq siyasətindən və uşaq hüquqlarının milli qanunvericiliyimizdə təsbit olunmasındakı rolundan bəhs olunub.

Sonra valideynlərə xüsusi açıqcalarda doğum haqqında şəhadətnamələr və gül buketləri təqdim




edilib. Valideynlər yaradılan şərait üçün dövlətimizə minnətdarlıqlarını ifadə ediblər.

Valideynlər muzeydə Ulu Öndərin mənalı ömür yolu və ictimai, siyasi fəaliyyətindən bəhs edən maraqlı eksponatlarla tanış olublar.

Sonda xatirə şəkli çəkdirilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

* * *

Ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimiz dövlətimiz və xalqımız tərəfindən hər zaman ehtiramla yad edilir, onların ailələrinə diqqət və qayğı göstərilir.



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivi də “Heydər Əliyev İli” ilə əlaqədar məhkəmədə qəbul olunmuş Tədbirlər Planına uyğun olaraq Vətən müharibəsi şəhidlərinin ailələri Novruz bayramı münasibətilə ziyarət olunub, onlara bayram sovqatları təqdim edilib. Kollektivin üzvləri Vətən müharibəsinin şəhidləri Nihat Seyidovun, Pərviz Məmmədzadənin və Fərmin Əliyevin ailələri ilə görüşüb, şəhidlərin əziz xatirəsi yad olunub. Görüşlər zamanı bildirilib ki, 44 günlük Vətən müharibəsində müzəffər Ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı ilə Qarabağı və digər ərazilərimizi işğaldan azad etməklə 30 illik yurd həsrətinə son qoydu və 2020-ci il müstəqil Azərbaycanımızın hərb tarixinə şanlı səhifə kimi yazıldı. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri döyüş meydanında əsl qəhrəmanlıq göstərərək Şanlı Azərbaycan tarixini möhtəşəm Qələbə ilə şərəfləndirdi.

Şəhidlərimizin ailələri dövlətimizin qayğısını daim üzərlərində hiss etdiklərini, qazanılan qələbədə övladlarının da payı olduğu üçün fəxr etdiklərini bildiriblər.

Sonra şəhidlərimizin keçdikləri döyüş yolundan, xatirələrindən söhbət açılıb. Hər bir şəhidimizin hələ yeniyetmə yaşlardan milli təəssübkeşliyə, vətənpərvərliyə, mübarizliyə, mərdliyə malik olduqları, cənab Ali Baş Komandanın döyüş əmrinə necə sevinclə qoşulduqları vurğulanıb.

Qeyd olunub ki, torpaqlarımızın erməni işğalından azad edilməsində canını fəda edən şəhidlərimizin ruhları qarşısında baş əyirik. Vətən naminə döyüşən qazilərimizlə, canlarından keçən şəhidlərimizlə qürur duyuruq, onları hər zaman yaşatmalıyıq və gələcək nəsillərə tanıtmalıyıq.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***



## Naxçıvan yaşıl enerji zonasına çevriləcək

*Azərbaycan Respublikası Prezidentinin Almaniyaya səfərində diqqətçəkən məqamlardan biri də, əvvəldən gözlənildiyi kimi, aparıcı alman şirkətlərinin rəhbərləri ilə görüşü oldu.*

Məlum olduğu kimi, Almaniya Avropa İttifaqının aparıcı ölkələrindəndir və bu ölkə ümumi daxili məhsulun həcminə görə (3,85 trilyon dollar) dünya dördüncüsüdür. Köhnə qitənin ən böyük iqtisadi gücü sayılan Almaniyanın son iki il ərzində Azərbaycanla xarici ticarət dövriyyəsinin həcmi də böyük dərəcədə (54 faizə yaxın) artıb. Ölkə başçısının alman iş adamları ilə görüşündə səsləndirdiyi fikirlərdən bir daha məlum oldu ki, Azərbaycan bu ölkə ilə iqtisadi əlaqələrin inkişafında, o cümlədən qarşılıqlı investisiya qoyuluşlarında maraqlıdır. Cənab İlham Əliyevin Azərbaycanın iqtisadi potensialı və gələcək hədəfləri haqqında görüş iştirakçılarına ətraflı məlumat verməsi də elə buna əsaslanırdı. Xüsusilə dövlət başçısının Azərbaycanın yaşıl enerji potensialı haqqında açıqlamaları, Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da yaşıl enerji zonasına çevirmək planlarından bəhs etməsi bu sahədə ixtisaslaşan alman şirkətləri üçün yaxşı fürsət sayıla bilər. Prezident cənab İlham Əliyev demişdir: ***“Ola bilsin, yaxın vaxtlarda 500 meqavatlıq günəş elektrik enerjisi stansiyasının tikintisi ilə bağlı bəzi addımlarımız olsun. Eyni zamanda Naxçıvanda ənənəvi elektrik stansiyaları da çox münasibdir. Çünki Naxçıvanın böyük ixrac potensialı mövcuddur, onun Türkiyə və İranla sərhədi var. Hər iki ölkədə elektrik enerjisinə artan tələbat var”.***

Qeyd etmək lazımdır ki, muxtar respublikanın enerji potensialından, xüsusilə yaşıl enerji imkanlarından istifadə son illərdə aktuallığını daha da artırıb. İndiyədək Babək rayonunda 22 meqavat, Kəngərli və Şərur rayonlarının hər birində 5 meqavat gücündə günəş, həmçinin muxtar respublikada ilk dəfə olaraq Culfa rayonunda külək elektrik stansiyalarının istifadəyə verilməsi bu istiqamətdə atılan ilkin addımlar kimi dəyərləndirilə bilər. Naxçıvanda yaşıl enerji layihələrinin reallaşdırılması və elektrik enerjisinin muxtar respublika üzərindən ixracı məsələlərinə diqqətin artırılmasının nəticəsidir ki, bu ilin fevral ayında Naxçıvanda enerji layihələri üzrə perspektivlər müzakirə edilib, dövlət başçısının da dediyi kimi, muxtar respublikada 500 meqavat gücə malik günəş elektrik stansiyasının tikilməsi imkanları dəyərləndirilib.

Prezidentin alman iş adamları ilə görüşündə ölkəmizin, eləcə də onun ayrılmaz hissəsi olan Naxçıvanın enerji potensialı haqqında detallı məlumatlar verməsi həm də ona hesablanıb ki, Azərbaycan yaxın gələcəkdə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaqdır. Artıq bu sahədə etibarlı tərəfdaş imici qazanmış Azərbaycan şaxələndirilmiş enerji idxalına böyük ehtiyac duyan Almaniya üçün də mühüm fürsətlərdən sayılır.

**✍ Səbuhi HƏSƏNOV**

2023-cü il "Heydər Əliyev İli"dir

# Xüsusi dövlət əhəmiyyətli tapşırıq

(II hissə)

*(əvvəli qəzetin 8 mart 2023-cü il tarixli nömrəsində)*

... İmamzadələr şəhəri, Şeyx Nizami yurdu, Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı olan Gəncə Azərbaycanda milliliyini qoruyub saxlamış, böyüklüyünə görə ikinci şəhərdir. İnsanları Cavad xan kimi vətənpərvər, mərd, qorxmaz, qonaqpərvərdirlər. İzmir Türkiyə üçün nə qədər əhəmiyyət daşıyırsa, Gəncə də Azərbaycan üçün bir o qədər əhəmiyyət kəsb edir.

İki gün ərzində şəhər və hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşüb tanış oldum. Yalnız birinə risk edib gəlişimin məqsədini açıqladım. Görmək istədiyim çox təhlükəli və heç bir qanun çərçivəsinə sığmayan bir iş idi. Bu qanunsuz işə görə həbs olunsaydım, azı 15 il "yatacaqdım". Müraciət etdiyim şəxs Gəncə Şəhər Polis İdarəsinin rəis müavini, polkovnik Ramiz Cahangirov idi. İlk dəfə idi ki, görüşürdük. Məni gözlədiyimdən çox səmimi qəbul etdi. Ramiz müəllim Naxçıvanda Daxili İşlər Nazirliyində Cinayət Axtarış İdarəsinin rəisi də işləmişdi. Naxçıvanı, naxçıvanlıları çox yaxşı tanıyırdı, o cümlədən də atamı. Yeri gəlmişkən, Ramiz müəllim dinc Xocalı sakinlərinin döyüş bölgəsindən helikopterlə çıxarılmasında şəxsən iştirak etmişdi. Qısa məşvərətdən sonra mənə kömək edəcəyini bildirdi.

Gəncə aeroportunda ruslara məxsus hərbi hava qüvvələrinin bazası yerləşirdi. Bütün silahlı qüvvələrə general Şerbak nəzarət edirdi. Aeroportda rus desantçıları, demək olar ki, hər şeyə nəzarət edirdi. Mənə, təxminən, 30 dəqiqə lazım idi ki, desantçıların diqqətini cəlb etmədən təyyarəni yükləyim. Təyyarənin içərisinin ölçülərini öncədən götürmüşdüm. Hansı yük təyyarənin hansı tərəfinə yüklənəcəksə, sxemi çəkib bu işdə mənə kömək edəcək dostlarıma vermişdim. Plan belə idi: mən Ramiz müəllimin xidməti maşınında, arxamızca da üstüörtülü bir yük maşını aeroportun ərazisinə daxil olacaqdıq. Cavanşir bəy təyyarəni əvvəlcədən şərtləşdiyimiz yerdə saxlayacaq, "AN 26" tipli təyyarə 4 ton yükümüzü aparacaqdı. Ona görə də bizə son dərəcə vacib olan yükləri öncədən tədarük etmişdim. Təyyarəyə girişin arxadan olması işimizi çox asanlaşdıracaqdı. Bu səbəbdən "AN 26"-nı seçmişdim. Həmin gün Gəncə Müdafiə Şurasının sədri Elşən Əliyevin atası Şubay kişinin evində qaldım. Onların yük maşınına müəyyən ardıcıllıqla qutuları yerləşdirdik. Özü, üç oğlu və iki qohumu mənə kömək edirdi. Aeroporta onları aparacaqdım. Hər şey qaydasında idi. İçimdə bir narahatçılıq var idi. Ekstremal vəziyyətə hazır deyildim – üstümdə silahım yox idi. Şubay kişiyə bir avtomat lazım olduğunu dedim. İki saatdan sonra bir "Kalaşnikov" gətirdi. Paltosunun altında aeroporta keçirməyi tapşırdım. Lazım olarsa, işarə ilə mənə verəcəyini dedim. Elşənlə isə görüşə bilmədim, çünki o, cəbhədə döyüşürdü.

Həyəcanla səhərin açılmasını gözləyirdim, gecəni yatmamışdım. Sabah üç gün tamam olurdu. Nəyin bahasına olursa-olsun yükü Naxçıvana aparmalı idim...

Səhər açılmışdı. Saat $9^{55}$-i göstərirdi. Heç bir yoxlama olmadan öndə biz, arxamızda yük maşını təyyarəyə yaxınlaşdıq. Məni görən kimi Cavanşir bəy dərhal təyyarənin arxasını açdı. Heç nə gözləmədən təyyarəni yükləməyə başladıq. Sonuncu yeşikləri yükləyirdik ki, yanımızda bir "QAZ-69" maşını dayandı. İçərisindən bir podpolkovnik və iki rus əsgəri düşdü. Podpolkovnik nə apardığımızı Ramiz müəllimdən soruşanda Şubay kişiyə işarə etdim, həmin dəqiqə paltosunun altından avtomatı mənə uzatdı. Avtomatı podpolkovnikə tuşlayıb qorxucunu açdım. Ruslar şoka düşmüşdülər. Görünür, indiyə kimi onların üzərinə silah çəkən olmamışdı. Ramiz müəllim mənə, lazım deyil, Urfullah, – deyəndə, mən rusca onlar başa düşsün deyə bunların üçünü də gəbərdəcəm, – dedim. Təyyarə artıq yüklənmişdi. Üzümü Cavanşirə tutub, motoru işə sal, – dedim. Podpolkovnik əllərini göyə qaldırıb əsgərləri ilə maşına oturdu. Mənsə Ramiz müəllim və dostlarla sağollaşıb təyyarəyə mindim. Cavanşir bəy məni kabinəyə dəvət etdi. Üç dəqiqə keçməmiş artıq biz havada idik. Sonralar aeroportun mühafizə xidmətinin rəisi mənə dedi ki, siz gedəndən sonra bir saatdan artıq podpolkovnikin avtomobili orada qalmış, yerindən tərpənməmişdi. Soruşdum ki, burada niyə dayanmısınız? Sanki yuxudan ayıldı, sürücüsünə, getdik, – əmrini verib, oradan uzaqlaşdılar. Mən özüm isə o rusu bir daha oralarda görmədim. Bir saat 10 dəqiqədən sonra biz Naxçıvan aeroportuna eniş edəcəkdik. İndi isə Qarabağın üzərindən uçurduq. Yükümüz ağır olduğundan yüksəklik 3000 metri göstərirdi. Aşağıda alışıb yanan şəhər və kəndlərimiz aydın görünürdü.

Naxçıvanda hava limanında əsgərlərimiz "yükü" dərhal boşaltdılar. Qısa istirahətdən sonra biz Gəncəyə uçduq. Dostlarımız bizi gözləyirdilər. Heç bir manea olmadan təyyarəni yenidən yükləyib Naxçıvana geri qayıtdıq. Təyyarəni boşaldıb, Cavanşirə 3 gün sonra Gəncəyə gəlməsini söylədim. Təyyarə Bakıya uçdu. Məndə qəti bir inam yaranmışdı ki, qısa zaman ərzində tapşırığın öhdəsindən gələcəyəm.

***

İş yerimə qayıdanda saat $18^{00}$-ı göstərirdi. Müdafiə Komitəsinin sədri Elman Abbasovla görüşəndə alayda bir problem olduğunu söylədi. 30 nəfərə yaxın zabit və gizir Qarabağa döyüşməkçün göndərilmələrini tələb edirdi. Qərargah rəisi ilə əlaqə saxlayıb alayın iclas zalında sabah $11^{00}$-da görüşə gələcəyimi bildirdim. Alayın iclas zalında məni gözləyirdilər. Görüşüb rəyasət heyətində yerimə əyləşdim. Onları eşitmək üçün tribunaya dəvət etdim. Növbə ilə üç könüllü zabit çıxış etdi. Çıxışların məzmunu eyni idi. Xocalı soyqırımının intiqamını almaq üçün bütün tərkiblə Qarabağa göndərilmələrini tələb edirdilər. Onların heç biri Naxçıvanın sərhəd kəndlərində olmamış, həqiqi hərbi xidmət keçməmiş könüllülər idi. Növbəti çıxış üçün tribunaya heç kim gəlmədi. Ötən ilə qədər Naxçıvanın sərhəd kəndlərində müdafiə postlarının yaradılmasından, bir ov tüfəngi ilə onlarla könüllünün növbə çəkdiyindən, baş verən erməni təxribatlarının Azərbaycanın qəhrəman oğlu Afiyəddin Cəlilov tərəfindən





necə qarşısının alındığı anlatdım. Xocalıda törədilmiş erməni vandalizmi haqqında onların danışdıqlarından daha çox məlumat verdim. Ermənilərin növbəti hədəfinin Naxçıvan olduğunu söylədim. Çox keçmədən burada ağır döyüşlərin şahidi olacaqlarını dedim. İndiki qədər Vətənimizin onlara böyük ehtiyacının olmayacağını anlatdım. Naxçıvanda onlara daha böyük ehtiyac olduğu halda, xidmət yerini dəyişmək tələbinin nə dərəcədə doğru olduğunu soruşanda 3 nəfərdən başqa hamısı bir ağızdan, siz haqlısınız, komandir, – dedilər. Beləliklə, növbəti təxribatın qarşısı alındı. Çox keçmədən ermənilərin Naxçıvana cəbhə boyu hücum edəcəklərini bilən bütün əhali doğma yurdumuzun müdafiəsi üçün səfərbər oldu. Məni isə Ali Məclisin Sədri, Ulu Öndər Heydər Əliyev gözləyirdi...

***

Blokada vəziyyəti vaxtilə dünyaya meydan oxuyan bir imperiyanın Naxçıvandakı hərbi hissələrini çox miskin hala gətirmişdi. Əsgərləri aclıq çəkir, həftələrlə yuyunmadıqlarından müxtəlif xəstəliklərə düçar olmuşdular, hərbi nizam-intizamdan əsər-əlamət qalmamış, oğurluq, itaətsizlik baş alıb gedirdi. Görkəmli dövlət xadimi Heydər Əliyevin göstərişi ilə hazırladığımız planın icrasına başladıq. İlkin olaraq hərbi hissələrdəki türk əsillilləri çıxarıb Bakıya, oradan da vətənlərinə yola salacaqdıq. Həmin gün 3 özbək əsgərini Bakıya yola saldıq. Bir neçə gündən sonra bizə yüzlərlə əsgər müraciət etdi. Hətta onların arasında ruslar da var idi. Təbii ki, biz onları yedirib-içirib təhlükəsiz şəraitdə yola salırdıq. Onlar bizə, Ali Məclisə yazılı olaraq təşəkkür edirdilər. Əvvəl özlərini ev sahibi kimi aparanlar indi qonaq kimi davranırdılar. Zabitlərin özləri hərbi hissələrdən silah-sursatı oğurlayaraq bizə satmaq istəyirdilər. Moskvanın niyyəti isə silah-sursatı, ağır texnikanı İrəvana aparıb ermənilərə təhvil vermək idi. Onlar Naxçıvanda Heydər Əliyev kimi bir dühanın varlığını unutmuşdular. Bütün bu problemlərin həlli isə zaman tələb edirdi.

***

Ertəsi gün Gəncəyə, oradan da Tərtər rayonunun Şirarx qəsəbəsinə (mənfur ermənilər vaxtilə buranı Marquşavan adlandırırdı) yola düşdüm. Ağır döyüşlər gedirdi. Elşənlə topun yanında görüşdük. Bir gün sonra Gəncəyə gələcəyini dedi. Axşamüstü Azərbaycan Milli Məclisinin üzvü, Gəncə Şəhər Fövqəladə Müdafiə Qərargahının rəisi Çingiz Sadıxovla görüşdüm. Məni çox səmimi qarşıladı. "Kəpəz" mehmanxanasında mənə bir otaq ayrılmasına göstəriş verdi. Sərəncamıma bir "Qaz-69" markalı avtomobil ayırdı. Məndən Namiq Həsənovu tanıyıb-tanımadığımı soruşdu. Namiq müəllimi kim tanımırdı ki? Daxili işlər nazirinin müavini kimi Namiq müəllim çox böyük bir missiyanı həyata keçirirdi. Siyasi məsələlər üzrə bütün danışıqlarda iştirak edirdi, böyük nüfuz sahibi idi. Çingiz müəllim Namiq müəllimlə birlikdə Ali Partiya Məktəbində oxuduğunu bildirdi. Yarana biləcək bütün problemlərlə bağlı ona müraciət etməyimi söylədi. Anbardan bizə lazım olan ehtiyacın aparılmasına icazə verildi. Anbardakı mövcud arsenallara baxıb son dərəcə vacib olanları seçib ayırdım. Təxminən, 50 ton yük idi. Yüklər böyük yeşiklərdə idi. Yükü qısa zamanda daşımaq üçün riskli bir qərar qəbul etdim. Onları tarasız aparacaqdım.

"AN-26" dəqiq vaxtında Gəncəyə eniş etdi. İki yük maşını ilə təyyarəyə yaxınlaşdıq. Yeşikləri açıb mərmiləri göstərdiyim şəkildə yükləməyə başladıq. Cavanşirdən xahiş etdim ki, tədricən yüklənsin və ensin. Təhlükəsizlik tədbirlərindən biri də mərmilərdən başlıqlarını ayırmağımız oldu.

Artıq Gəncə aeroportunda bütün ehtiyat tədbirlərini görmüşdüm. Bizə qarşı ruslardan heç bir təhlükə gözlənilmirdi. Aeroportun polis rəisi İlqar müəllimdən bizə müvafiq köməkliyin göstərilməsini xahiş etdim. Aeroportun polisləri bizim yüklərimizi qoruyurdular. Vaxtdan səmərəli istifadə üçün yüklərimizi öncədən aeroporta gətirirdim. Gündə iki dəfə Naxçıvana uçurduq. Axşam Gəncədə şəhər nəqliyyat prokuroru Hüseyn Əlizadənin yaşadığı evə getdim. Hüseyn müəllim həyat yoldaşı Tükəzban xanımla məni çox mehribanlıqla qarşıladı. Hüseyn müəllim çətin, mənalı həyat yaşamışdı. Bir neçə il idi ki, Özbəkstandan Gəncəyə köçmüşdülər. Onların həyətlərinə daxil olanda qonşuları mənə çox diqqətlə baxıb ünsiyyət yaratmaq istəyirdi, balaca uşaqlar isə "Azərbaycan əsgəri" marşını oxuyurdular. Hüseyn müəllimin evindən telefonla Ulu Öndər Heydər Əliyevlə əlaqə saxlayırdım. Tükəzban xanım isə qonşularına, bu gün xalqımızın böyük oğlu Heydər Əliyevlə danışığımızı iftixarla xəbər verirdi. Allah Hüseyn müəllimə və Tükəzban xanıma rəhmət eləsin. Mənə deyirdilər ki, hər gün bizə gəl, başqa yerdə şam etmə. Mən isə Ulu Öndərlə danışmaq zərurəti yarananda onlara gedirdim.

"AN-26" təyyarəsi ermənilərin diqqətini cəlb etmişdi. Cavanşir dedi ki, bizə atəş açırlar. Gündə iki dəfə uçuş həyata keçirmək təhlükəli olmuşdu. Ona dedim ki, mümkün qədər döyüş zonasının üzərindən deyil, kənardan uçaq. Uçuş vaxtını mən təyin edirdim, çalışırdım ki, uçuş saatlarımız bir-birindən fərqli olsun. Düşmən bizə atəş açırdı. Ekipajın həyatını təhlükə qarşısında qoya bilməzdim. Pilotlar (4 nəfər idi) qəhrəmanlıq göstərirdilər. Biz düşmən hədəfinə çevrilə bilməzdik, hər birimiz böyük bir məsuliyyət daşıyırdıq. Nə isə etməli idim. Ancaq nə?

Məlum səbəblərdən görkəmli dövlət xadimi Heydər Əliyevə görə Naxçıvana kömək etmək təhlükəli idi. Ən yaxşı halda kömək edənlər təqibə məruz qalır, işdən çıxarılırdılar. Amma çoxları heç nədən qorxmayaraq yüksək vətənpərvərlik, dahi şəxsiyyətə böyük rəğbət göstərərək bizə yardım edirdilər. Onlardan biri də Gəncə şəhər Nizami rayon prokuroru Mahmud Nəbiyev idi. Onunla görüşüm çox səmərəli oldu. Onun köməkliyi ilə 15 təyyarə "yükü" vaxtında Naxçıvana çatdıra bildim. Ondan əlavə, Sumqayıtdan Boru Prokat Zavodundan 2000 metr boru gətirilməsini xahiş etdim. Bir həftə ərzində borular Gəncə şəhərinə gətirildi. Mahmud müəllim bir neçə dəfə məni evlərinə dəvət etdi. Sonralar mənə məlum oldu ki, həmin günlər mənə sui-qəsd törədiləcəkmiş. Mahmud müəllimin atası Yusif Nəbiyev Naxçıvanda Nazirlər Sovetinin sədri işləmişdi. Azərbaycanda sovet dövrü görülən işlər həmişə rayon partiya komitəsinin 1-ci katibinin adı ilə bağlı olurdu. Naxçıvanda isə sənaye obyektləri, tədris müəssisələri, klublar, yollar, binalar və sair Yusif Nəbiyevin vaxtında tikilib, – deyirdilər. Allah ona rəhmət eləsin! Heç kim onun qapısından əliboş qayıtmayıb. Ümummilli Liderə Mahmud Nəbiyev haqqında məlumat verəndə Yusif Nəbiyev barəsində xoş xatirələrindən danışmışdı.

Gəncə Şəhər İcra Hakimiyyətində Fiqan İmaməliyevlə tanışlığım yerinə düşmüşdü. Əslən Naxçıvanın Xok kəndindən idi. Atası Nəbi İmaməliyev Azərbaycanda ilk milis (polis) polkovniki olmuşdu. Naxçıvan şəhərində Atatürk prospektində Cəmşid Naxçıvanskinin ev-muzeyi ilə üzbəüz ikimərtəbəli binaya polkovnik Nəbi İmaməliyevin barelyefi asılmışdı. Fiqan müəllim Gəncə Şəhər İcra Hakimiyyətində Sənaye, nəqliyyat, rabitə şöbəsinin rəisi idi. Ən böyük məsələ "yükü" daşımaq idi. Təhlükəli olduğundan heç kim qorxulu, qanunsuz "yükü" daşımaq istəmirdi. Bir çox problemlər, o cümlədən "yükün" daşınması dərhal həll olundu. Digər mühüm məsələ isə Gəncə-Naxçıvan və əks tərəfə sərnişin daşınmasında fasiləyə yol verilməməsi idi. Fiqan müəllim bu vacib məsələni ciddi nəzarətdə saxlayırdı. Hər dəfə İcra Hakimiyyətinə gələndə Fiqan müəllimlə mühüm məsələləri müzakirə edib, onun məsləhəti ilə bəzi tədbirləri uğurla həyata keçirirdim. Ona zərər gələcəyindən ehtiyat edirdim. Fiqan müəllim isə "Naxçıvan bizim ürəyimizdir, hamının borcudur ki, Vətənə kömək etsin", – deyirdi. Ayrıca məni icra başçısının müavini Nizami Əhmədovla da tanış etdi...

(ardı var)

**Urfullah QURBANOV**

***Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin Əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi***

## Tədris və keyfiyyət təminatı üzrə Litva təcrübəsi öyrənilib



13-17 mart tarixlərdə Avropa Komissiyası tərəfindən maliyyələşdirilən və Bakı Biznes Universitetinin koordinatorluğu ilə həyata keçirilən "Azərbaycanda Rektorlar Konfransının yaradılması" adlı Erasmus+ layihəsi çərçivəsində 2023-cü ildə sayca üçüncü səfər Litvanın Vilnüs şəhərində baş tutub.

İşgüzar görüşlər Mykolas Romeris Universitetinin ev sahibliyi ilə keçirilib. Səfərdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nümayəndəsi, 20-yə yaxın Azərbaycan ali təhsil müəssisəsindən rektorlar, prorektorlar və digər məsul şəxslər iştirak ediblər. "Naxçıvan" Universitetini rektor, dosent Anar Kazımov, Tədris şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Anar Abuzərli və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli təmsil ediblər.

Səfərin məqsədi tədris və keyfiyyət təminatı üzrə Litva təcrübəsinin öyrənilməsi olub. Belə ki, səfər proqramı çərçivəsində Litva Rektorlar Konfransının, eləcə də Mykolas Romeris Universitetinin rəhbər şəxsləri tərəfindən Litvanın ali təhsil sistemi, Litva Rektorlar Konfransında fəaliyyət göstərən Tədris işləri üzrə komitənin rolu, Litvada ali məktəblərin milli akkreditasiya sistemi, ali təhsil müəssisələrinin nəticəyə əsaslanan maliyyələşdirmə modeli üzrə təqdimatlar həyata keçirilib. Eyni zamanda təhsildə keyfiyyət təminatı məsələləri təlim proqramının digər mühüm istiqaməti olub. Mykolas Romeris Universitetinin keyfiyyət təminatı üzrə təcrübəli ekspertləri universitetin daxili keyfiyyət təminatı sistemi, tədris proqramının və ixtisas komitələrinin rolu, tələbə mərkəzli tədris, öyrənmə və qiymətləndirmə, universitetin akademik heyətin idarə edilməsinə dair siyasəti, o cümlədən pedaqoji heyətin peşəkar inkişafı kimi mühüm mövzularda mövcud təcrübələrini bölüşərək məhsuldar fikir mübadilələri aparıb, universitetin kampusu, o cümlədən kitabxanası və tədris laboratoriyaları ilə tanış olublar.

Səfər müddətində layihənin koordinatoru Gülşən Bayramova layihənin aralıq monitorinq nəticələri barədə iştirakçılara məlumat verib.

Yekunda Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Eldar Aslanov tərəfindən "Azərbaycanda Rektorlar Konfransının yaradılması" layihəsi çərçivəsində yaradılmış Tədris və keyfiyyət təminatı üzrə komitənin iclası keçirilib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

# Torpaq uğrunda ölən varsa, Vətəndir
## və ya qan yaddaşı unutmağı sevmir

*Dünən yaşananlar*

Özünün yaşı qədər haqsızlıqlara şahid olub bu qoca dünya. Hər şeyin zirvəsini görüb – insanlığın da, barbarlığın da... 1918-ci ilin mart soyqırımı o günə qədərki dəhşətlərin vəhşəti-zirvəsi kimi yazılıb tarixin qan yaddaşına. O gün yer-göy qan ağlayırdı. Dünya belə qanlı gün görməmişdi. Nə idi bu xalqın günahı? Niyə bu qoca dünya üz çevirmişdi bizdən?

Düşünürəm ki, bəlkə, insanlığa xas olan ən yüksək, ən ali hisslərə sahib olmağımız idi günahımız?..

Düz 70 il sonra – 1988-ci ildə bu oyunlar yenidən başlayacaqdı, tarix yenidən təkrar olunacaqdı. Bu qoca dünyada biz o günləri yenidən yaşayacaqdıq. Hələ o günə 70 il vardı...

...İnsan həmişə ucalığa, aliliyə can atır. Bu, İlahi tərəfindən verilmiş hüquqdur. Bəs vəhşətin son həddinə çatmaq necə? Yeri, yurdu olmayan, kökü bu günə kimi araşdırılıb üzə çıxarılmayan, süfrəmizin çörəyi ilə, torpağımızın bərəkəti, suyu ilə böyüyən “gor qonşularımızı” biz niyə tanımadıq? Fil qulağındamı yatmışdıq?

Yox! Onların bu riyakarlığını ağlımıza belə yaxın gətirməzdik. Çünki bizim damarlarımızda axan qan Sara xatının qanıdır, Xətai babamızın qanıdır. Bu qan bizə insanlığı öyrədib.

...İnsanlıq və vəhşət. Hər ikisi Allahın yaratdığı varlığın qəlbindədir. Bu da həyatın cavabı tapılmayan suallarından biri deyilmi?

...Qoca dünya bütün bunları görə-görə bərkiyib, ancaq bu suala cavab tapa bilmir.

...O gün ulu tarixə malik olan xalqımızın ah-naləsi ərşə qalxmışdı. Şaumyanlar, androniklər, əmiryanlar at çapırdılar torpaqlarımızda. İnsan qanı sel əvəzi axırdı. Qoca bilmirdilər, qadın tanımırdılar, uşaq saya almırdılar – dünya buna necə dözürdü, İlahi? O gün – martın 30-dan 31-ə keçən gecə bolşevik-daşnak birliyi Bakıda nələr etmədi?

Xalqımızın böyük oğlu Nəriman Nərimanov sonralar yazacaqdı: “Müsəlman, hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: “Biz heç bir bolşevik tanımırıq, təkcə müsəlman olmağı kifayətdir”.

Sözə, ifadəyə diqqət kəsilin. Günahımız müsəlman olmağımızmış, bəlkə?..

Allah sənə rəhmət eləsin, “Biçarə Vətən” deyən ulu ustad Mirzə Cəlil!

...Bünövrəsi Bakıda qoyulan qırğınlar hələ sentyabrın ortalarınadək çəkəcəkdi. Hələ qarşıda Quba vardı, Kürdəmir vardı, Salyan, Lənkəran, Şamaxı vardı hələ...

...Tükürpədən faktlar bağır çatladır: 42 min soydaşımız öldürülüb. 144 kənd dağıdılıb. “Kaspi” mətbəəsi, “Açıq söz” qəzeti redaksiyası, “İsmailliyə” binası yandırılıb. “Təzə Pir məscidi” top-tüfəng atəşinə məruz qalıb.

Tarix dil açıb danışır: “Mən erməni xalqının qəhrəmanı və müdafiəçisiyəm. Mən buraya qayda yaratmaq və sovet hakimiyyəti qurmağa gəlməmişəm... Mənə Xəzər dənizindən Şahdağadək olan ərazilərdə bütün müsəlmanları məhv etmək əmri verilmişdir”. Bu sözlər daşnak dəstəsinin komandiri Hamazaspa məxsusdur.

Baxın dəhşətin fitrətinə!

Baxın “zavallı xalqın” sərkərdəsinin öz iç üzlərini açıb tökən sözlərinə.

Baxın onların böyük bolşevik qardaşları ilə birlikdə yeritdikləri anti-Azərbaycan siyasətinə.



Yadıma ermənilərin dənizdən-dənizə “böyük Ermənistan” yaratmaq xülyası düşür... Bu da minilliklərin sınağından çıxmış atalar sözüdür: “Yaxşı ki Allah dəvəyə qanad verməyib...” Bütün bunların başında isə ermənilərin torpaqlarımıza göz dikməsi dururdu. Havadarlarının köməyi ilə Zəngəzur və Dərələyəzə sahib ola bildilər. Sonralar iştahaları bir qədər də artdı. Ancaq düşünmürdülər ki, belə işğalçılıq siyasətinə bir gün son qoyulacaq.

*Və 70 il sonra*

...Nə qədər ki Ulu Öndər ölkəmizə rəhbərlik edirdi, tam dəqiqliklə və cəsarətlə demək olar ki, o dövrdə ermənilər Azərbaycandan bir qarış belə torpaq qopara bilmədilər. O vaxt Ermənistan Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində işləyən Dəmirçiyanın Ümummilli Liderimizin böyüklüyünü iki cümlə ilə etiraf etməsi görkəmli dövlət xadiminin Moskvada daha böyük vəzifəyə təyin olunmasına qədər ermənilərin öz işğalçılıq planlarını həyata keçirməsinə imkan vermədi. Dəmirçiyan demişdi: “Qarşınızdakı Heydər Əliyevdir. Ağlınız əvvəlki katiblərə getməsin...”

1988-ci ildən – məlum hadisələr başlayandan 2020-ci il sentyabr ayının 27-dək müşahidə etdiyimiz proseslər mənfur erməninin iyrənc simasını, xarakterini (xaraktersizliyini) bir daha ortaya qoydu. Qarabağ ətrafında yerləşən rayonlarımızın işğalı, orada yaşayan azərbaycanlıların doğma yurd-yuvalarından didərgin salınması, həmin ünvanlardakı yeraltı və yerüstü sərvətlərimizin talan edilməsi, abidələrimizin dağıdılması, müqəddəs yerlərdən başqa məqsədlər üçün istifadə, saymaqla bitməyən vəhşiliklər və onların bütün insanlığa təhdir sayılan nəticələri...

...Artıq bıçaq sümüyə dayanmışdı. Geriyə yol yoxdur. Ölkəmiz özünün yeni tarixini yazdı – silah və qanla. Bu, şərəfli bir tarixdir – illərboyu çörəyimizin artığı ilə böyüyən, əsli-kökü bilinməyən erməni vandalizmi üzərində qazanılan zəfər və şərəf tarixi. Bu tarixi yazmaq cəmi 44 gün çəkdi. Bu 44 gün ərzində bütün Azərbaycan və Azərbaycansevərlər ayaqüstdə durdular. Xalq ***“Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam”***, – deyən cənab İlham Əliyevin ətrafında sıx birləşdi. Bu, “Dəmir yumruq” üçün ən böyük birlik idi. Hər gün ölkə başçısının xalqa müraciətlərini dinləməksə hər birimizdə qələbənin uzaqda olmadığı qənaətini daha da gücləndirirdi. Xaricdən gəlmiş muzdlu jurnalistlərin, məntiq etibarilə təmsil etdikləri dövlətlərin ölkəmizə münasibətlərinin şahidi olduq. Onların heç bir tarixi mənbəyə sığmayan sərsəmləmələri cənab İlham Əliyev tərəfindən qəti və tutarlı dəlillərlə və güclü siyasi xadim səviyyəsində rədd edildi.

O dövrdə ermənilərin havadarlarının–BMT Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun fəaliyyətini də gördük. BMT Təhlükəsizlik Şurası məsələ ilə bağlı 4 qətnamə qəbul etsə də, kağız üzərində qaldı – ermənilərin o qətnamələrin heç üzlərinə də baxmamaları belə böyük beynəlxalq təşkilatın özünə ən böyük təhqir idi. Hələ ATƏT-in Minsk qrupu... Bu bədnam təşkilat Azərbaycana, guya, “xeyirxahlıq missiyası yerinə yetirməyə” gələn ilk vaxtlarda xalqımız ona necə inanırdı? O öz səlahiyyətlərindən necə istifadə etdi bəs? Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa müraciətində dediklərini xatırlayıram: ***“Bəs, nədir Minsk qrupunun fəaliyyəti? İşğalçıya təzyiq edə bilibmi? Yox! Təzyiq etmək istəyibmi? Yox! Dəfələrlə mən onların qarşısında məsələ qaldırmışdım: əgər məsələnin həllini görmək istəyirsinizsə, sanksiyalar tətbiq edin Ermənistana. Sizin əlinizdədir. Siz BMT Təhlükəsizlik Şurasının daimi üzvlərisiniz, istənilən məsələni həll edə bilərsiniz. Xüsusilə bu ölkələrin rəsmi nümayəndələri deyirlər ki, bu məsələdə onların fikri üst-üstə düşür. O da maraqlı bir məsələdir. Necə olur, bütün başqa məsələlərdə – nüvə silahları ilə bağlı, Yaxın Şərqdə olan vəziyyətlə bağlı, Asiyada olan vəziyyətlə bağlı, Avropada olan vəziyyətlə bağlı bunların maraqları daban-dabana ziddir. Hansı başqa məsələdə bunların maraqları üst-üstə düşür? Heç bir məsələdə. Ancaq Dağlıq Qarabağ məsələsində. Nə üçün?”*** Burada 2020-ci il oktyabr ayının 9-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xalqa daha bir müraciətində gəldiyi qəti bir qənaət yadıma düşür: ***“Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik”.*** Bu, ermənilərə havadarlıq edənlərin ikili standartlarının üstündən birdəfəlik qara xətt çəkmək idi. Ermənilərinsə xəyalları əvvəlki dövrlərə getmişdi. Ona görə də bütün bunlara – nəyin nə vaxt ediləcəyinə inanmırdılar. Qondarma “Dağlıq Qarabağ Respublikası”na “prezident” seçirdilər, iqamətgahı Şuşaya köçürürdülər. Ermənistanın baş naziri Şuşada, Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edirdi. Başları insan ağlına sığmayan cinayətlərə qarışmış erməniləri – bu “məzlum xalqı” isə bəzi beynəlxalq təşkilatların dedikləri “bu münaqişənin hərbi həlli yoxdur” qənaətinə inandıra bilmişdilər.

Ancaq o nankorlar ölkəmizin iqtisadi və hərbi qüdrətinin getdikcə güclənməsini, Azərbaycanın dünya siyasi arenasında söz sahibi olmasını da bilirdilər. Görürdülər ki, ölkəmiz böyük iqtisadi səmərə verən qlobal layihələrə qoşulub, Ermənistanın isə bu layihələrdən kənarda qalması ilə razılaşmaqdan başqa çarəsi olmamasını yaxşı dərk edirdilər.

Ermənistan onu da gördü ki, bu gün Azərbaycanın güclü ordusu var. Cənubi Qafqaz regionunda söz sahibi, qüvvə sahibi olan bu ordu Ali Baş Komandanın əmri ilə qısa bir vaxtda torpaqlarımızı azad etmək qüdrətinə malikdir. Elə 2016-cı ilin Aprel döyüşləri bunu bir daha göstərdi. Ermənistan Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun 2017-ci ildə keçirilən möhtəşəm paradından da dərs almadı.

Və nəhayət, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” 2018-ci il 18 yanvar tarixli Sərəncamı bu xalqın mübarizliyinin, öz hüquqlarını qorumaq əzminin günü-gündən yüksəldiyinin, hər an mənfur ermənidən qisas almağa hazır olduğunun, haqq işimizin qalib gələcəyinin ifadəsi kimi böyük ictimai-siyasi əhəmiyyət daşıdığını da yaxşı bilirdi.

Pişik kimi belini yerə vurmaq istəməyən ermənilər haqq işimizin qalib gələcəyi gününün uzaqda olmadığını da bilməmiş deyildilər. Və o günü də gördülər. Hələ də gördüklərindən özlərinə gələ bilməyiblər.

Yüz illərdir, Azərbaycana qarşı etdiklərinin əvəzini 44 gündə alan bu barbar millət, çətin ki özünə gələ. Atalarımız yaxşı deyib: “Qozbeli qəbir düzəldər”.

*Qan yaddaşı unutmağı sevmir*

İkinci Qarabağ müharibəsi yüz illərdir, torpaqlarımıza diş qıcayan ermənilərə öz yerini göstərdi. Mövcudluğu dövründə xalqımıza qarşı həyata keçirdikləri qırğınlarda qurban getmiş azərbaycanlıların qanını döyüş meydanında aldı igid oğullarımız. Şəhadətə yüksələn, sağlamlıqlarını itirib, qazi kimi evinə qayıdan qəhrəmanlarımız onların mübarizəsinin haqq işi, ədalətin bərpası olduğunu bir daha dünyaya bəyan etdilər.

Bunu fevral ayının 18-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Dağları aşmaq? Qafqazda təhlükəsizliyin qorunması” mövzusunda keçirilən plenar iclasda ölkə Prezidenti cənab İlham Əliyevin jurnalistlərin suallarına verdiyi cavabla dilə gətirdi: ***“Biz öz ərazimizdə döyüşmüşük. Bizim apardığımız müharibə torpaqların azadlığı uğrunda müharibə idi. Ona görə də o, ədalətli müharibə idi. Apardığımız müharibənin məqsədi torpaq işğal etmək deyildi. Ona görə də bir nəfər əsgərimiz belə döyüş meydanını tərk etmədi. 44 gün ərzində şəhər və kəndlərimiz “İsgəndər” raketləri ilə atəşə tutulduğunda belə heç kəs döyüş meydanını tərk etmədi. Ermənistanda isə fərarilərin sayı 11 minə çatmışdı. Niyə? Ona görə yox ki, onlar döyüş meydanında uduzurdular. Ona görə ki, onların apardığı müharibə işğalçı müharibə idi”.***

Ötən dövrün hadisələri bunu bir daha sübut etdi. Azərbaycan dünyanın ən böyük siyasi tribunalarından sülh sazişi ilə bağlı ölkəmizin hər an hazır olduğunu bildirsə də, bu “zavallı millət” yenə də öz havadarlarına arxayın olaraq yenidən müharibəyə başlamaq üçün Qarabağa silah daşımaqdan əl çəkmək istəmir. Ekoloji könüllülərdən qorxaraq alternativ yolla – əgər buna yol demək mümkündürsə – öz çirkin əməllərini davam etdirir. Ancaq düşünmür ki, sirkə nə qədər tünd olarsa, öz qabını sındırar...

*Son olaraq. Tariximizin bütün ağrılarını, əzablarını qəlbində gəzdirən görkəmli dövlət xadimi Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 Martı Azərbaycanlıların “Soyqırımı Günü” kimi elan etməsi xalqın soyuna, kökünə, özünə qayıdışı idi. Bu özünə, gələcəyə, inam idi. Bu inam doğrultdu özünü. Bu inam yaşatdı Odlar yurdunu. ...Biz böyük olmuşuq. Bu gün də böyüklüyümüzü saxlayırıq. Sabah da böyük olaraq qalacağıq. Çünki bizim qanımızla gəlib bu böyüklük. Qan yaddaşı unutmağı sevmir.*

✍ **Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Teleradioların yayım keyfiyyəti yüksəldilib

Ötən ay Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası tərəfindən aparılan monitorinqlər nəticəsində aşkar edilən nöqsanlar operativ şəkildə teleradiolara bildirilib və aradan qaldırılıb.

Duzdağ Radio-Televiziya Ötürücü Stansiyasında aparılan yenidənqurmadan sonra köçürülmə işləri ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasında teleradioların fəaliyyətinin müvəqqəti dayandırılması üçün fevralın 20-də Naxçıvan Muxtar Respublikası “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsi tərəfindən şuraya məlumat daxil olub. Həyata keçirilən tədbirlərə görə Naxçıvan televiziyasının və radiosunun, “Kanal 35” televiziyasının, “Naxçıvanın səsi” radiosunun yayımı fevralın 22-də saat $09^{30}$-dan etibarən dayandırılıb, Naxçıvan televiziyasının efiri həmin gün saat $20^{30}$-da bərpa edilib. “Kanal 35” televiziyasının və Naxçıvan radiosunun yayımı fevralın 23-də saat $10^{00}$-da bərpa olunub. Ötən ay “Naxçıvanın səsi” radiosunun yayımı isə müvəqqəti olaraq 41-ci kanalda davam etdirilib.

Hesabat dövründə Naxçıvan televiziyasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin iştirak etdiyi tədbirlərlə bağlı, ümumilikdə, 8 telematerial efirə verilib. Fevral ayında verilişlərin növbəti 74 sayı nümayiş etdirilib. Hesabat ayında televiziyada vətənpərvərlik mövzusu diqqətdə saxlanılıb. “Heydər Əliyev İli” münasibətilə Ümummilli Lider Heydər Əliyevin arxivlərdə qorunan unikal kadrları ölkə miqyasında ilk dəfə olaraq Naxçıvan televiziyasında təqdim edilib. Bundan başqa, müstəqillik dövründə ilk dəfə olaraq redaksiyanın müxbirləri azad olunmuş ərazilərə, Şərqi Zəngəzur iqtisadi rayonuna ezam olunub, canlı yayımlara geniş yer verilib, Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan maraqlı reportajlar nümayiş etdirilib. Həmçinin Xankəndi-Laçın yolunda azərbaycanlı ekofəallarının təşkil etdiyi etiraz aksiyasından reportajlar və süjetlər yayımlanıb.

Vurğulayaq ki, fevralın 6-da qardaş Türkiyə Cümhuriyyətinin 11 vilayətini əhatə edən dəhşətli zəlzələ ilə bağlı Naxçıvan televiziyası da nümunəvi addım atıb, əyləncəli proqramlar yayımdan çıxarılıb.

Naxçıvan radiosu bəhs edilən dövrdə 448 saat efirdə olub. Ümumilikdə, ay ərzində 99 veriliş və canlı proqram, 331 konsert proqramı təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

### İtmişdir

Kərimov Məhəmməd Zeynalabdin oğlunun adına olan evin 15741 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Zeyvə kəndində yaşamış Hüseynov İsa Abbas oğlunun adına olan JN-$468^{D}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 218